# ÜLVİ AYDIN

*Mikayılov Ülvi Aydın oğlu (Ülvi Aydın) 29 dekabr 1990-cı ildə Bakı şəhərində anadan olmuşdur.*

*Bakı Dövlət Universitetinin Filologiya fakültəsini 2014-cü ildə (bakalavr) bitirmiş, hazırda Bakı Slavyan Universitetinin Publisistik jurnalistika ixtisası üzrə magistrantıdır.*

*Ülvi Aydının ilk kitabı "Düşünək gərək"-2013, II Nəşri-2016, "Çağlayan sevgi"-2014, "Təmənnasız qan" 2015-ci ildə işıq üzü görmüşdür. "Eşqin səsi" müəllifin dördüncü kitabıdır.*

*2016-cı ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.*



*Dinləməyi və öyrənməyi bacaran insanlar xoşbəxtliyə bir addım daha yaxındırlar.*

*ÜLVİ AYDIN*

## AZƏRBAYCAN XANIMI

Sübh qarıdır qeyrəti,
Arı qızıl sərvəti.
Örnəkdir mərifəti,
Abırlı, isмətlidir
Azərbaycan xanımı.

Ağlı alınmaz qala,
Heyranam bu kamala.
Uymayır cəh-calala,
Toxdur, dəyanətlidir.
Azərbaycan xanımı.

Siması gündü, aydı,
Nuru Tanrıdan paydı
İdeala həmtaydır,
Bahar təravətlidir
Azərbaycan xanımı.

Hər bir evə işıqdır,
Özü bir yaraşıqdır.
Məramı yaxşılıqdır,
Daim xoş niyyətlidir
Azərbaycan xanımı.

Sevinclidir baxışı,
Bahar eləyir qışı.
Yerində davranışı,
İncə nəzakətlidir
Azərbaycan xanımı.

Çox olsun qələbəsi,
Duyulmasın naləsi.
Həzin nəğmədir səsi,
Ünü məlahətlidir
Azərbaycan xanımı.

Görməsin vaxtsız acı,
Ataya fəxr, baştacı.
Qardaşa məğrur bacı,
Ərə sədaqətlidir
Azərbaycan xanımı.

Gəlin edək etiraf,
Sözü bütöv, dürüst, saf.
Əhdə çıxmayır xilaf,
Ülvi məhəbbətlidir
Azərbaycan xanımı.





Balayçün verir canın,
Şirin olan hər anın.
Düşünmür güzəranın,
Ucadır, qüdrətlidir
Azərbaycan xanımı.

Ürəyi dolu sirdir,
Səlist nitqə qadirdir.
Sözləri cəvahirdir,
Dolğun, bəlağətlidir
Azərbaycan xanımı.

Ucalır təmiz adla,
Bilik, təhsil, savadla,
Ağılla, istedadla.
Hər zaman hörmətlidir
Azərbaycan xanımı.

Var həkimi, hakimi,
İncəsənət xadimi.
Yüzlərcədir alimi,
Bəli, fəxarətlidir
Azərbaycan xanımı.

Rübayi, qəzəli var,
Şeirləri yadigar
Məhsəti, Natəvanlar,
Şanlıdır, şöhrətlidir
Azərbaycan xanımı.

Müsbəti gəlmir saya,
Getmir haya-haraya.
İradəsi sal-qaya,
Möhkəm, qətiyyətlidir
Azərbaycan xanımı.

Ayların qatır ilə,
Dözür çətin, müşkülə.
Sirrin car çəkmir elə,
Güclüdür, qüvvətlidir
Azərbaycan xanımı.

Koroğlunun dirəyi,
Sinəsində ürəyi,
Nigar arxa köməyi.
Mərddir, mətanətlidir
Azərbaycan xanımı.





At belində oturan,
Düşmənə qan udduran,
Həcər kimi qəhrəman.
Cəsur, şücayətlidir
Azərbaycan xanımı.

Zəif, acizə gülməz,
Ruhunda yoxdur qərəz.
Bütün kainatı gəz,
Dünyaya ibrətlidir
Azərbaycan xanımı.

Rənalığı üzündə,
Söhbətində, sözündə,
Cümlə-cahan gözündə.
Gözəl, ləyaqətlidir
Azərbaycan xanımı.

Daim olsun firavan,
Dadmasın nisgil, hicran.
Ülvi Aydınçün hər an
Ən ali qiymətlidir
Azərbaycan xanımı.

***17.02.2015***

## TARİX YAZDI AZƏRBAYCAN

İgid oğlu, mərd qızıyla
Tarix yazdı Azərbaycan.
İlk Avropa oyunları,
Kiçik ölkə, böyük idman

Yazılmadı öz-özünə
Bu yazılan tariximiz.
Bu tarixi yazdıranlar
Bax, qoydular böyük bir iz.

Doğru olan addımlarla,
Ağıllı bir siyasətlə,
Bu tarixi yazdıranlar
Yazdırdılar xoş niyyətlə.

Otuz ayın hüdudunda
Dövlətimiz oldu hazır,
Bu möhtəşəm oyunlara
Hər kəs bu gün bizdən yazır.





Oyunların açılışı
Əsrarəngiz, çox möhtəşəm.
Ədəbiyyat, incəsənət
Bir arada oldular cəm.

Bağlanış da açılıştək
Yenə oldu yadda qalan.
Əminəm ki, olacaqdır
Tarix boyu xatırlanan.

Sadiq qaldı ənənəyə
Dövlətimin komandanı.
Tək qoymadı idmançısın,
Qaçırtmadı heç bir anı.

İdmançısın təbrik etdi,
Medalını özü taxdı.
Xoş arzular diləyərək,
Fəxarətlə əlin sıxdı.

Qaliblərə deyil yalnız,
Məğluba da durur dayaq.
Diqqətindən, qayğısından
İdmançısın qoymur qıraq.

Oyunları təşkil etdi,
Təşkilata rəhbər olan.
Gecəsini gündüz bilib
Yazdı idman adlı dastan.

Əməyini sərf elədi
Bu bayramda könüllülər.
Azərbaycan övladları
Göstərdilər böyük hünər.

Yarışları təşkil etmək
Gücümüzün nümunəsi.
Qürurumuz, qələbəmiz
Himnimizin səslənməsi.

Himnimizi səsləndirdi
İyirmi bir idmançımız.
Zirvələrdə dalğalandı
Enməz olan bayrağımız.





Arenalar bürünmüşdü
Azərbaycan sədasına.
Elə bil ki, övlad edir
Müraciət anasına

Qələbəyə ruhlandırır
İdmançısın dayanmadan.
Canı dildən qışqıraraq,
Azərbaycan, Azərbaycan.

İyirmisi bürüncdəndir,
On beş ədəd gümüş medal.
İyirmi bir qızıl oldu,
Bu gerçəkdir, deyil xəyal.

Əlli altı medal ilə
İkincilik qazanmışıq.
Saçır bütün kainata
Azərbaycan adlı işıq.

Dövlətimiz hələ gəncdir,
İyirmi dörd yaşı vardır.
Qazandığı hər bir uğur
Millətinə iftixardır.

Gənc olsa da dövlətimiz,
Dövlətlərin arasında
Layiq olan yeri tutub,
Cədvəlin ön sırasında.

Neft ölkəsi deyil yalnız,
Günü-gündən lap ucalan
Həm də idman ölkəsidir,
Odlar yurdu Azərbaycan.

Ülvi Aydın qürur duyur
Doğma, əziz məmləkətlə.
Azərbaycan adı ilə
Bu millətlə, bu dövlətlə.

*12.07.2015*